Sərbəst

# Bir neçə söz

Müasir Azərbaycan poeziyasının gənc nəsli barəsində düşünəndə, istedadlı gənc şairlər sırasında Zərifə Şükran öz gözəl poetik yaradıcılığı və mehriban şair təbiətilə gəlib gözlərimin önündə dayanır. Zərifə Şükran həm ilham sahibidir, həm də elə qaynaqlara bağlı şairlərimizdəndir ki, ədəbi yaradıcılığa bütün ciddiyyətilə yanaşır, sənətin nə olduğunu gözəl başa düşür.

Şairliкə yanaşı, şair təbiəti, - bəli, bu şərtdir, - Zərifə Şükran insanların həyatından, onların sevgisindən hərarətlə söhbət açmağı sevir, müasirlərinin bədii portretini göstərməyə çalışır. Onun elə şeirləri vardır ki, görürsən həssas bir ürək döyünür. O, poetik obrazlar, ştrixlər, bədii boyalar axtarır, duyaraq yazır, səmimi yazır. Təbiidir ki, şeirdə yalnız süjeti danışmaq, hadisəni adicə olaraq nağıl etmək heç vaxt poeziyanın məqsəd və vəzifəsi olmamışdır. Dünya, rus və Azərbaycan ədəbiyyatının zəngin təcrübəsi də bunu təsdiq edir.

Zərifə Şükranın səmimiliyi və narahatlığı təbii görünür. "Nikbinlik" şerində Zərifə Şükran nəcabət və şərafət sahibi olan insanların bədii surətini yaratmağa çalışır

*Bu dünya səhnədir, qapısı pərdə*
*Qızmadım şənlikdə, sınmadım şərdə.*
*Gözümlə görəni xatirələrdə,*
*Ruhumla görəni qəlbimdə tapdım.*

Mənсə, bu iki beyt haqqında xeyli danışmaq olar. Elə bilirəm, Zərifə Şükranın oxucuları şerimizə yeni bir nəfəsin gəldiyini yaxın gələcəkdə duyacaqlar.

**Nəriman HƏSƏNZADƏ**
*xalq şairi*

Zərifə Şükran



## Nikbinlik

Nə gəliş hədərdi, nə gediş hədər,
Nə vaxtsız sevinc var, nə vaxtsız kədər.
Quzeyim məzlumdu, güneyim qədər, -
Şərqimdən bezəni Qərbimdə tapdım.

Bu dünya səhnədir, qapısı pərdə,
Qızmadım şənlikdə, sınmadım şərdə.
Gözümlə görəni xatirələrdə,
Ruhumla görəni qəlbimdə tapdım.

Yazılan qanundur, pozulan qayda,
Fırtına quşuna göldən nə fayda?!
Çürüyən taxtımı büllur sarayda,
Göyərən baxtımı qəbrimdə tapdım.

Vəfalı dağlara qar düşə bilməz,
Atəşə kor baxan döyüşə bilməz.
Təsəlli heç nəyi dəyişə bilməz,
Fələyin zülmünü cəbrimdə tapdım.

Paşalıq görmədim maşa məlikdə,
Nəfəsim neydədir, səsim dəlikdə.
Allaha sevgini şükranəlikdə,
İnsana sevgini səbrimdə tapdım.

## Buza dönmüşəm...

Sözündə rüzgarın nəmi
Gözündə dünyanın qəmi.
Cənnət bildin cəhənnəmi,
Məni yandıra-yandıra.

Göy üzü iman pərdəsi,
Yer üzü güman pərdəsi.
Olmusan duman pərdəsi
Çəni yandıra-yandıra.

Dəniz idim, duza döndüm
Torpaq idim, toza döndüm.
Axır mən də buza döndüm
Səni yandıra-yandıra.

## Hələ gec deyil...

Bulud görüb daraldım,
Xəzan görüb saraldım.
Torpaq kimi qaraldım,
Sən belə deməmişdin.

Gedən ömürdən gedir,
Gələn gör nə gündədir,
Sevincim sürgündədir
Sən belə deməmişdin.

Çap qayanı, böl daşı,
Yuva qurum, çöp daşı.
Qoyma olum çöl daşı,
Sən belə deməmişdin.

## Ülfət ağladanı külfət kiridir...

Bu qədər deyinmə, qaraldı beynim
İçimi imkansız acılar didir.
Köçəri yuvada açılmaz eynim,
Məhəbbət dərdimin mində biridir.

Dözümün sirrini çarmıxdan soruş,
Əzablar doğuşdan əzəl görünür.
Çox zaman qanadı kəsilməyən quş
İnsana qəfəsdə gözəl görünür.

Tənhalıq tapana rahib olmadın,
Bəylərin sevgisi bəyimə gərək.
Qəlbimə ruhunla sahib olmadın,
Bədənə sahiblik nəyimə gərək.

Şahı mat qoyanı zər uda bilməz,
Könlümün atəşi bilir həddini.
Sinəmi məzar da soyuda bilməz.
Mən çoxdan aşmışam ölüm səddini.

Taleyin hökmünü unutma sən də,
Qana süd qatanda canı can tapır.
Arabir kədərim sakitləşəndə,
Sevincim bir aləm həyəcan tapır.

Mağarın boşalıb, duyarsan indi
Yiyəsi kiriyən yas nə düşünür.
Həsrəti qınama, demək çətindi
Dəmiri göynədən pas nə düşünür.

Pərvanə neyləsin şam üzülürsə,
Hələ daşdan çıxır işıq pulumuz.
Əlimiz hər şeydən tam üzülürsə,
Vərdişdi yeganə çıxış yolumuz.

Sən özgə diyarda toy-nişan axtar,
Göz yaşı quruyan yasın mən olum.
Bəynişan nəfsinə zərnişan axtar,
İlahi bir eşqə yasin mən olum.

Çox da ki, paltarım çərkəzi deyil,
Xəncərlə köksümdən qopardım səni.
Gözəllik əyləncə mərkəzi deyil,
Loğmanım olsaydın tapardım səni.

Bu qədər üzülmə, qaraldı beynim,
Ülfət ağladanı külfət kiridir.
Dünyanı versən də açılmaz eynim,
Məhəbbət dərdimin mində biridir.